# “Dəmir yumruq” Azərbaycan həqiqətlərinə “Zəfər yolu” açdı

***Müdrik ululларımız gözəl deyiblər: gələcəyə ümidlə baxan xalq heç vaxt yenilməz! Çox sevindiricidir ki, torpaqlarımızın işğaldan azad olunması ilə Azərbaycan yeni yazılan çox şərəfli bir tarixə qədəm qoydu. “Dəmir yumruğun” gələcəyə açdığı böyük yolda büdrəməməyimiz üçün müdrik Prezidentimiz, qalib Ali Baş Komandanımız bizə torpaq eşqinin, yurd məhəbbətinin ən uca dəyər olduğunu anlatdı, yeni nəslə, lazım gələrsə, Vətən yolunda canını da əsirgəməməyi aşıladı.***



Bütün bunları düşünərkən uşaqlıq xatirələri məni rahat buraxmadı. Keçmiş günləri xatırlayarkən insanın nə qədər kövrək anlar yaşadığını sözlə ifadə etmək çox çətindir. Uşaqlıq illəri, orta məktəb, yay aylarında yaylaqda keçirdiyimz günlər... Doğmalarla, qohumlarla, dostlarla min bir naxış vurduğumuz günlərdən ötrü insanın burnunun ucu göynəyir. Ən çox yadda qalan isə orta məktəb illəridir.

Xatirimdədir, orta məktəbdə dərs deyən müəllimlərin çoxu öz peşəsinə vurğun insanlar idi. Onlar həmişə çalışırdılar ki, bilik verdikləri uşaqlar onların etmadlarını doğrultsunlar, üzlərini ağ eləsinlər. Dərs dedikləri şagirdlərin ali məktəbə daxil olmalarına, bəlkə də hamıdan çox onların müəllimləri sevinirdilər. Toyda-yasda onların adlarını fəxrlə çəkir, gənc nəsli savadlı olmağa ruhlandırırdılar. Bizə ədəbiyyat dərsi keçən Xıdır müəllim öz fənnini çox gözəl bilirdi. O istəyirdi ki, hamı ədəbiyyatçı olsun. Xıdır müəllim ədəbiyyat dərsində görkəmli şairlərdən, yazıçılardan söhbət açarkən, mövzunu elə izah edirdi ki, sanki, sehirlənirdin, ədəbiyyata həvəsin daha da güclənirdi.

Mirzə İbrahimovun “Gələcək gün“romanı, Süleyman Rəhimovun “Mehman” povesti həyat yolumuzun bələdçisi olmuşdu. Mən bu yazıma başlayarkən də “Gələcək gün” romanını bir daha xatırladım. Mirzə İbrahimovun romana belə ad verməsinin arxasında hansı məqamların olduğunu anlamaq indi daha asandır. O dövrdə soydaşlarımızın böyük hissəsinin yaşadığı İranda şahlıq rejiminin siyasi gedişlərinin xalqın həyat tərzinə sarsıdıcı təsiri bütün incəlikləri ilə romanda öz əksini tapmışdı. Yazıçının ən böyük ədəbi idealının mərkəzində isə Azərbaycanın Güneyi ilə Quzeyinin bir-birindən aralı düşməsi idi. Amma İran şahlıq rejiminin süqutundan 12 il sonra sovet kommunist diktaturasının çöküşü talenin bizə bəxş etdiyi müstəqilliyimizi mərhumiyyətli sınaqlarla üz-üzə qaldı. Azğın qonşularımız olan erməni vandalları soydaşlarımızı doğma torpaqlarından min bir zorakılıqla qovdular, sivil dünyanı saya salmayıb Xocalı soyqırımını törətdilər, əlavə 7 rayonumuzu işğal etdilər. Az imiş kimi, 30 illik işğal dövründə ələ keçirdikləri yurdumuzda daşı daş üstə qoymadılar.

Nəhayət ki, havadarlarından dəstək alıb məğlubedilməz olduqlarını düşünən erməni faşistləri Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə formalaşan “Dəmir yumruğ”un zərbəsinə tuş gəldilər. Azərbaycan xalqının ümid çırağına çevrilən Ali Baş Komandan uzun illər çox böyük səbrlə, təmkinlə beynəlxalq təşkilatların bütün təkliflərini süzgəcdən keçirdi və “Dəmir yumruğ”un qarşısında heç bir qara qüvvənin tab gətirməyəcəyinə əminliklə müqəddəs savaş başlatdı, mürdar yağmaçıları ulu torpaqlarımızdan süpürülüb atıldı.

Qürur hissi ilə deyə bilərik ki, dünya savaş və diplomatiya tarixinə qızıl hərflərlə qələbə möhrünü vuran Ali Baş Komandan İlham Əliyev bir qərinəlik dövrdə dünyanın qadir güc mərkəzlərinin, səlahiyyətli beynəlxalq təşkilatların edə bilmədiklərini və ya etmək istəmədiklərini 44 gündə Azərbaycan Ordusunun gücü ilə gerçəkləşdirdi. Azəraycan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin müddəalarına uyğun olaraq, beynəlxalq hüququn bərpa olunmasına təkbaşına nail oldu və Ermənistan silahlı qüvvələrini 30 il işğal altında saxladığı ərazilərdən çıxardı.

Ali Baş Komandan İlham Əliyevin ay yarım gecə-gündüz bilmədən savaşa birbaşa rəhbərlik etməsi, Azərbaycan əsgər və zabitlərinə mənəvi cəhətdən dayaq olması Vətən oğullarına ilahi güc verdi. Qəhrəman əsgərlərimiz düşməni əzib-çökdürüb pərən-pərən etdi. İnformasiya savaşına da birbaşa rəhbərlik edən dövlət başçısı beynəlxalq auditoriyanı Azərbaycanın haqq işinə inandıra bildi, bəzi xarici jurnalistlərin məkrli suallarını belə diplomatik bacarıqla cavablandırdı, düşmənin hərb mexanizmi ilə yanaşı, onun beyinləri zəhərləyən təbliğat maşınını da sıradan çıxartdı.

Artıq Azərbaycan xalqı rahat nəfəs ala bilir. Ulu öndərimiz Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident və Ali Baş Komandan İlham Əliyev öz ölkəsinin dünyada söz sahibi olduğunu bir daha sübut etdi. Müzəffər liderimiz xalqımıza qələbə sevincini yaşatdı. Polad iradəmizi, cəsurluğumuzu, vətənpərvərliyimizi, andımıza sadiqliyimizi sübut etmək üçün bizə geniş meydan verdi. Vətən oğulları 44 günlük müharibədə döyüş meydanında yeni tarixə qapı açmağa qadir olduqlarını qətiyyətlə sübut etdilər.

Darmadağın edilmiş düşmən “Dəmir yumruğ”un gücünü əsrlər boyu unutmayacaq. Müharibə başa çatıb, ancaq Ermənistanla rəsmi sülh yoxdur. Yaranmış gerçəklik odur ki, Azərbaycanın inzibati bölgü xəritəsində Dağlıq Qarabağ deyilən bir ərazinin olmadığı birmənalı olaraq qəbul edilməlidir. İndi ölkəmizdə inzibati mərkəzi Xankəndi olan Xocalı rayonu var. Bu yeni regional reallıq birmənalı başa düşülməli və sözsüz qəbul edilməlidir. Ermənistan bu həqiqəti qəbul etməli, Azərbaycanla arasındakı sərhədlərin delimitasiyası və demarkasiyası üzərində çalışılmalıdır. Başqa yol seçimi, təbii ki, “Dəmir yumruq”la üz-üzə durmaq deməkdir.

Həqiqətdir ki, bütün dünyada rəzil olan erməni dövləti yediyi “Dəmir yumruğ”un zərbəsindən özünə gələ bilmir. Onlar bilməlidirlər ki, vətən sevgisi ilə yeni tarix yazan Azərbaycan oğulları qarşısında duruş gətirməyi hər ölkə bacarmaz, o da ki qalsın, erməni xislətlilər, özgə torpağına göz dikənlər!

Havadarlarına arxalanan, Aqambekyan, Balayan kimi siyasi avantüristlərdən dərs alan bu yazıqlar elə bilirdilər ki, onları ortaya atanların köməyi ilə yenə də torpaq qamarlayacaqlar. Böyük Türk dünyasına meydan oxuyan nankor qonşular, artıq XXI əsrdə yaşadıqlarını dərk etməlidirlər. Onlar bunu başa düşməyiblərsə, bundan da yazıq günə qalacaqlar. Onlar artıq uçrumun başındadırlar, hər an məhv olma təhlükəsi ilə üzbəüzədirlər.

Demək istəyirəm ki, ay zavallı erməni toplumu, başınızın altına yastıq qoyanlar indi sizə sahib çıxmırlar. Sabah da belə olacaq, yenə sizdən bir alət kimi istifadə edəcəklər. Çünki xislətiniz, məramınız, istəyiniz bunu tələb edir. Yaxşı bilirik ki, ”Dəmir yumruq” əməliyyatından sonra özünüzə gələ bilmirsiniz, yuxunuz ərşə çəkilib. Məncə, bu sizə – qonşunun haqqına sahib çıxmaq istəyən əxlaqsız topluma son dərs olmalıdır.

Deyiləsi, yazılası çox nüanslar var, onlardan biri də Azərbaycan xalqının öz adət-ənənəsinə sadiq olmasıdır. Biz qüdrətli bir xalq olaraq həmişə qonşuluq ənənəsini yaşadan, bu gün də ona hörmətlə yanaşan bir xalqıq. Bu xalqın qədirbilən qəhrəman oğullarında biri, bütün varlığı ilə xalqına xidmət edən, onun gələcəyini və bugününü uca tutan Ali Baş Komandan İlham Əliyevin müdrik siyasəti, düzgün yolu bugünkü uğurlarımızın əsas qaynağıdır. Onun həyata keçirdiyi güclü dövlət və yenilməz ordu quruculuğu siyasəti bizi zəfərə qovuşdurdu.

Beləliklə, Ali Baş Komandan ortada olan, cavabsız qalan bütün suallara qələbəylə cavab verdi. Düşünürəm ki, dünyada analoqu olmayan 44 günlük müharibədə qələbəmizin baş müəllifi, Ali Baş Komandan İlham Əliyev və yenilməz ordumuz Azərbaycan xalqının başını uca etdi. Dahi Nizami Gəncəvinin bir misrasını yada salmağı gərəkli bilirəm: “Səadət günəşi birlikdən doğar!”.

Çağdaş tarixin ən düyünlü münaqişəsi kimi 33 il uzanan Qarabağ məsələsi Azərbaycan xalqının birliyi, bizə bu qələbəni bəxş edən Prezident İlham Əliyevin gərgin səyləri, uzaqgörən diplomatiyası sayəsində öz həllini tapdı. Tarix bir daha sübut etdi ki, əgər biz bir xalq olaraq Prezidentimizin ətrafında sıx birliyimizi qoruya bilsək, heç bir qara qüvvə bizə öz məkirli əlini uzada bilməz.

Böyük qələbə isə bir daha təsdiqlədi ki, Azərbaycan xalqının dövlətinə və rəhbərinə olan sədaqəti, məhəbbəti sonsuzdur! Xalqının gələcəyini düşünən Ali Baş Komandanımız ötən bir ildə “Dəmir yumruğ”un düşmənin başının üstündə olmasının böyük əhəmiyyət daşıdığını bir daha sübut etdi. Təbii ki, Paşinyan kimilər sərxoş vəziyyətdə Türk dünyasına qıcıq verərək yallı gedəndə bu acı sonluğu xəyallarına belə gətirmirdilər. Amma Azərbaycan xalqı Şuşanı özünə milli varlıq timsalı seçəndə, bu müqəddəs məkanın Azərbaycan mədəniyyətinin beşiyi olduğunu sübut edəndə düşmən məğmun və çarəsiz qaldı. Ən önəmlisi isə bütün dünya ədalətin qalib qəldiyini gördü.

Yeni tarix yazan Azərbaycan xalqı, onun müdrik liderinin diplomatik gedişləri və sərkərdəlik məharəti məğlubiyyət epoxasına son qoydu. “Dəmir yumruq” isə Azərbaycan həqiqətlərinə “Zəfər yolu” açdı.

Bir də zaman göstərdi ki, ortaq dəyərlərimiz bütün Türk dünyası üçün müqəddəs və əzizdir.

***Rüfət RÜSTƏMOV,***
***Bakı Dövlət Universitetinin kafedra müdiri, filologiya elmləri doktoru, professor, yazıçı-publisist***